**Vergi Məcəlləsinə dəyişiklik**

«İnformasiya əldə etmək haqqında», «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında», «Kommersiya sirri haqqında» qanunlara və Vergi Məcəlləsinə dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin fərmanları ilə kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları) və onların nizamnamə kapitalındakı payları barədə məlumatlar kommersiya (vergi) sirrinə aid edilmişlər və bu səbəbdən həmin məlumatlar yalnız qanunvericiliklə nəzərdə tutulmuş şəxslərə və ya təsisçilərin (iştirakçıların) razılığı ilə üçüncü şəxslərə verilə bilər. Qeyd edək ki, Vergilər Nazirliyi sistemində kommersiya hüquqi şəxslərin dövlət reyestr məlumatlarının ictimaiyyətə açıqlanması mərkəzləşdirilmiş qaydada bu məlumatların «Vergilər» qəzetində dərc edilməsi və nazirliyin internet səhifəsində "Kommersiya hüquqi şəxslərin dövlət reyestri" bölməsində yerləşdirilməsi, habelə informasiya sorğusu verənlərin müraciətlərinin fərdi qaydada cavablandırılması yolu ilə aparılır. Hər il Vergilər Nazirliyinə və ona tabe bütün strukturlara kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları) və onların nizamnamə kapitalındakı payları barədə sorğular daxil olur və bir çox hallarda bu sorğularda kommersiya hüquqi şəxslərin təsis sənədlərinin (təsisetmə qərarının, nizamnamənin) və təsisçilər barədə məlumatları əks etdirən digər sənədlərin (məhkəmə qərarı və s.) surətinin verilməsi xahiş olunur. Kommersiya (vergi) sirrinin qorunması Vergi Məcəlləsinin 30-cu maddəsi ilə tənzimlənir. Qanunlara və Vergi Məcəlləsinə edilmiş son dəyişikliklər belə müraciətlərin cavablandırılması zamanı kommersiya (vergi) sirrinin qorunmasını təmin edən tədbirlər görülməsini şərtləndirir. «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» qanuna əlavə edilmiş 15.9-cu maddə kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları) və onların nizamnamə kapitalındakı payları barədə sorğu əsasında məlumatların verilməsi şərtlərini müəyyən edir. Adı çəkilən maddəyə əsasən, kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları) və onların nizamnamə kapitalındakı payları barədə məlumatlar yalnız aşağıdakı şəxslərə verilir:

- Qanunla müəyyən edilmiş qaydada məhkəmə, istintaq və təhqiqat orqanlarına
- «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikasının qanunu ilə müəyyən edilmiş hallarda və qaydada əməliyyat-axtarış fəaliyyətinin subyektlərinə
- «Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında» qanunla müəyyən edilmiş hallarda və qaydada maliyyə monitorinqi orqanına
- «İcra haqqında» qanunla müəyyən edilmiş hallarda və qaydada məcburi icra orqanına
- «Vəkillər və vəkillik fəaliyyəti haqqında» qanun ilə müəyyən edilmiş hallarda və qaydada vəkilə
- Kommersiya hüquqi şəxsin digər təsisçilərinə (iştirakçılarına) kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları) və onların nizamnamə kapitalındakı payları barədə məlumatlar üçüncü şəxslərə yalnız barəsində dövlət reyestrindən məlumatların verilməsi tələb olunan şəxsin razılığı ilə verilə bilər.

Göründüyü kimi, qanuna əsasən, kommersiya hüquqi şəxsin qanuni təmsilçisi (rəhbəri) belə təsisçilər barədə məlumatı yalnız onların razılığı ilə əldə edə bilər. Vergilər Nazirliyi Kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatının təşkili şöbəsinin rəisi İftixar Axundovun sözlərinə görə, hazırda nazirlik tərəfindən AVİS-in «VÖEN» altsistemində kommersiya hüquqi şəxslərin dövlət reyestrindən çıxarışın üçüncü şəxslərə verilməsi üçün ayrıca formasının hazırlanmasına və çap edilməsinə imkan yaradılması (bu çıxarışda təsisçilərə və onların paylarına aid sətirlər göstərilməyəcəkdir) üçün müvafiq tədbirlər görülür. Bu imkan yaradılanadək üçüncü şəxslərə verilməsi üçün reyestrdən çıxarışlar vergi orqanlarının müvafiq vəzifəli şəxsləri tərəfindən məlumatların kompütərə mexaniki yığılması yolu ilə hazırlanacaq.

Arzu İBRAHİMOVA